Tarix və onun problemləri, №1-2 2009

XATİRƏ İLYASOVA

# XƏZƏRLƏR HAQQINDA MƏLUMAT VERƏN ƏSAS MƏNBƏLƏR

Xəzərlərin tarixi haqqında məlumat verən mənbələr bir tərəfdən geniş, digər tərəfdən isə çox azdır. Digər xalqların, ilk növbədə Rusiyanın tarixi ilə bağlı əsərləri nəzərə alsaq, onda birincisi, yəni xəzərlər haqqında mənbələrin geniş olması daha həqiqətəuyğundur. Çox nadir hallarda ola bilər ki, qədim rus tarixi ilə bağlı əsərlərdə xəzərlər haqqında məlumat verilməsin və rus-xəzər münasibətlərinə toxunulmasın. Bizans, Ərəb xilafəti və Cənubi Qafqaz xalqlarının, xüsusilə Rusiyanın cənubunda bir-birini əvəz etmiş köçərilərin – bulqar, türk, madyar, peçenek, quğ və qıpçaq tarixini şərh edərkən xəzərlərdən yan keçmək mümkün deyil. Belə əsərlərin hamısında həmin xalqın tarixi ilə bağlı xəzərlərə müraciət edilir.

Bilavasitə xəzərlərin tarixinə həsr olunmuş, onların tarixinin bütün dövrlərini əhatə edən əsərlərin sayı çox azdır, lakin xəzər tarixinin ayrı-ayrı məsələlərinə həsr olunmuş əsərlər isə nisbətən çoxdur. Bu məsələlərin içərisində alimlərin diqqətini cəlb etmiş bir sıra məqamlar mövcuddur: xəzərlərin etnik mənsubiyyəti və onların dili haqqında bir sıra məsələlər. Bu məsələ ilə bağlı xəzər qalası Sarkelin adı mühüm rol oynamışdır. Lakin qeyd etmək lazımdır ki, bu qalanın yeri haqqında da müəyyən ziddiyyətli fikirlər mövcuddur. Xəzərlərin ibri dilini qəbul etməsi haqqında fikirlər də böyük maraq doğurur. Xəzərlərin yəhudiliyə üz tutması orta əsrlər dövrü üçün qeyri-adi bir hadisə idi, belə ki, bu dövrdə yəhudilər və onların dini təqib edilirdi.

Bizans-xəzər və rus-xəzər münasibətlərinə, xüsusilə xəzərlərin Krım işlərində roluna, habelə slavyanların maarifçisi Konstantinin (Kirill) Xəzəriyəyə missiyası və rusların Xəzər dənizinə yürüşlərinə həsr olunmuş əsərlər də kifayət qədərdir. Bu, xəzər tarixinin əsas mövzularıdır və xəzərlərlə bağlı ədəbiyyatın böyük bir hissəsi bunların ətrafında cəmləşir. Xəzərlərin tarixi ilə bağlı digər məsələlərə daha az diqqət yetirilmiş və elə məsələlər də vardır ki, onlar ümumiyyətlə monoqrafik planda tədqiq edilməmişdir.

Xəzər tarixşünaslığının belə vəziyyəti müəyyən dərəcədə mənbələrin vəziyyəti ilə izah oluna bilər. Bu əsərlər öz dili və xarakterinə görə son dərəcə müxtəlifdir.

Xəzərlərin tarixi üzrə mənbələrdən yalnız iki yazı yəhudi-xəzər mənşəlidir. Onlardan biri X əsrin ortalarında ispan əyanı, yəhudi Xasday ibn Şafrutun sorğusuna cavab olaraq xəzər çarı İosifin göstərişi ilə yazılmışdır (954 və 961-ci illər arası). İspan yəhudisi xəzər çarından ona Xəzər çarlığı, yəhudilərin ora gəlişi və xəzərlərin yəhudi dininə müraciət etməsi haqqında məlumat verməsini xahiş etdi. Xəzər çarının cavab məktubu iki mətndə saxlanılmışdır – müxtəsər və geniş. Onlardan biri, daha müxtəsəri Xasday ibn Şafrutun məktubu ilə birlikdə hələ təxminən 1577-ci ildə nəşr olunmuş, lakin 1660-cı ildə Bukstorfun nəşri ilə məşhurlaşmışdı. Lakin ikincisi, daha geniş olanı sonralar öz saxtakarlığı ilə məşhur olan karaim A.Firkoviçin əlyazmalar toplusunda aşkar olunmuş və A.Y.Qarkavi tərəfindən 1874-cü ildə dərc edilmişdir. (5, 85) 1912-ci ildə S.Şaxter Kembric universitetinin kitabxanasında əlyazmalar içərisində saxlanılmış yəhudi-xəzər mənşəli daha bir yazının fraqmentini nəşr etdirdi. O da Xasday ibn Şafrutun sorğusuna cavab idi, lakin İosifin məktubundan daha tez, qeyri-rəsmi şəxs, Konstantinopolda yaşayan xəzər yəhudisi tərəfindən yazılmışdı. İspan əyanı tərəfindən xəzərlərin yanına göndərilən xüsusi nümayəndə yalnız Bizans imperiyasının paytaxtına qədər gəlmişdi və buna görə Xasday ibn Şafrut bu məktubda əks olunmuş məlumatlarla kifayətlənməli olmuşdur. Xəzər çarının özü ilə məktublaşmaq ispan yəhudisinə başqa yolla, bütün Avropa vasitəsilə mümkün oldu. (3,12)

Qeyd etmək lazımdır ki, bu iki yəhudi-xəzər sənədinin orijinal olmaması haqqında müəyyən fikirlər yarandı və bir sıra alimlər onları məharətlə edilmiş saxtakarlıq hesab edirlər. M.İ.Artamonov bu baxışı ədalətsiz hesab edir və yəhudilərə yanlış münasibətə əsaslandığını bildirir. Çar İosifin məktubundan onun geniş mətninə uyğun sitat 1090 və 1105-ci illər arası dövrə aid olan yəhudi yazıçısı İexuda ben Barzilların əsərində öz əksini tapmışdır. Orada Konstantinopoldan olan xəzər yəhudisinin məktubu haqqında qeyd də vardır. Bu barədə qeydlərə Avraam ben Daudun əsərində də təsadüf edilir. Sonradan bu məsələ İsaak Akrişaya məlum olmuş və o da bunu 1577-ci ildə çap etdirmişdir. Ola bilməz ki, yəhudi-xəzər məktubları haqqında qeydləri əhatə edən bütün bu qədim əsərlər XVI əsrdə əlavə edilmiş olsun. (3,12)

B.A.Rıbakov hesab edir ki, çar İosifin orijinal məktubu mübaliğə ruhunda 1083-cü ildən sonra Tmutorokani və ya Şərqi Krımda dəyişikliyə məruz qalmışdır. Sonra, XI-XII əsrlərdə İspaniyada Barselona yəhudiləri mühitində geniş mətnin təsviri (coğrafiya ilə bağlı hissədə) ixtisar olunmuş və Xəzər xaqanlığının qüdrətinin epik xarakteristikası sahəsində gücləndirilmişdir. (15, 150)

İosifin məktubunun geniş mətninin Krım mənşəli olması haqqında yeni olmayan fərziyyə hər şeydən əvvəl, məhz bu vilayətə yönələn diqqətə əsaslanır. Bu mətndə xəzərlərin ixtiyarında olan Krımın on bir və ya on iki şəhəri, o cümlədən kiçik şəhərləri sadalanır. Şimali Qafqazın xəzər şəhərlərindən yalnız Semenderin adı çəkilir. Onu da qeyd etmək lazımdır ki, məktubda sadalanan Krım şəhərləri həqiqətən də xəzərlərin hakimiyyəti altında idi və bu, İosifin dövründən bəlkə də daha erkən dövrə aid idi. Bu əsasən Krım Qotinin şəhərləri idi. Tarixi gerçəkliyə uyğun olaraq xəzər hakimiyyətinin o qədər də yayılmadığı Xerson şəhəri bu şəhərlərin sırasında yoxdur.

B.A.Rıbakov məktubun geniş mətninin meydana gəlməsini 1079-1083-cü illərdə Tmutorokanidəki hadisələrlə əlaqələndirir və orada xəzər milliyyətçiliyini görür. (15, 150) Lakin bu, tarixi gerçəklikdən uzaq idi. Həqiqətdə Tmutorokanidə böyük rus knyazı Vsevolod Yaroslaviçlə siyasi və ailə bağları ilə bağlanan Bizans tərəfindən təhrik olunan, önəmli və nüfuzlu qrup təşkil edən xəzərlər 1079-cu ildə Vsevolodun rəqibi – Tmutorokan knyazı Oleq Svyatoviçi tutdular və onu Konstantinopola göndərdilər. 1083-cü ildə Tmutorokana qayıdan Oleq ona xəyanət edən xəzərləri məhv etdi. Tmutorokan xəzərlərinin Xəzər xaqanlığının bərpa edilməsinə çalışması və deməli, onların İosifin məktubunun geniş mətni tipli ədəbi – təbliğatçı əsərlərinin köməyi ilə keçmiş Xəzəryanı dövlətin yüksəlməsinə ehtiyacı haqqında məlumat verən heç bir mənbə mövcud yoxdur. Oleqdən qurtaran Tmutorokan xəzərləri Vsevolod-Ratiborun canişininə tabe oldular.

Erkən rus tarixinin xəzərlərlə sıx bağlı olmasına baxmayaraq rus salnamələri xəzərlər haqqında çox az məlumata malikdir. Bu onunla izah olunur ki, rus salnaməsi yaranan dövrə qədər xəzərlər artıq tarixi arenadan çıxmışdı, onlar haqqında saxlanılmış şifahi qeydlər geniş və əhatəli ola bilməzdi.

Latın və yunan mənbələrində xəzərlər haqqında məlumat nisbətən daha əhatəlidir. Bizans imperiyası uzun müddət Xəzər xaqanlığı ilə ittifaqda olmuşdu: o əvvəlcə Sasanilər dövləti (İran) ilə, sonra isə daha təhlükəli düşməni – ərəblərlə mübarizədə məhz Bizansa güvənirdi. Xəzərlər Krımda Bizans torpaqlarının bilavasitə qonşuları idi və bəzən Bizans tarixinin daxili hadisələrində də mühüm rol oynayırdı. Buna görə xəzərlər haqqında qeydlər Bizans mənbələrində Xəzər xaqanlığının mövcud olduğu bütün dövr ərzində nisbətən çoxdur.

VII əsrdə hələ Xəzər dövləti ilə Bizans arasında sonrakı dövrlərdə olduğu kimi sıx əlaqə mövcud deyildi. Əksinə o dövrdə gənc Xəzər dövləti Bizans üçün təhlükəli düş-

mən idi. O, sürətlə Bizansın nüfuz dairəsində yerləşən və hətta imperiyanın tərkibinə daxil olan Qaradəniz sahili vilayətlərə sahib oldu.

Şərqi Krım və Taman yarımadasından fərqli olaraq Cənubi Krım VII əsrdə çiçəklənmə dövrünü yaşayırdı. Burada siyasi və iqtisadi mərkəz dağlıq Krımın əkinçi əhalisi ilə sıx bağlı olan və köçərilərlə ticarətdə mühüm rol oynayan Herson idi. Bizans Krımı öz tabeliyində saxlamaq üçün çox çalışmışdı. I Yustinian Hersonu güclü qalaya çevirmişdi. Böyük diqqət yerli əhali arasında imperiyanın hakimiyyəti və nüfuzunun ideoloji möhkəmlənmə vasitəsi kimi xristianlığın yayılmasına ayrılmışdı. Bununla bağlı olaraq, həm Hersonun özündə, həm də onun əyalətlərində məbədlərin tikilməsinə səy göstərilirdi.

576-581-ci illərdə qısa müddətli türküt işğalı Krımın həyatında böyük dəyişikliklər yaratmadı. Bizansın Krımdakı mövqeyi Bulqar çarlığı Kubratın dövründə də möhkəm idi. Xəzərlərin gəlişi ilə burada faciə baş verdi. Onlar yalnız bulqarları tabe etməklə kifayətlənmədilər və Bizansı da sıxışdırmağa başladılar. Hələ VII əsrin ortalarında xəzərlər Krıma daxil oldular və Hersonu onun kənd təsərrüfatı çevrəsindən təcrid edərək yarımadanın yanız düzənlik deyil, həm də cənubi dağlıq hissəsini tutdular. Hesron öz möhkəm divarları arxasında dayana bildi və müəyyən müddət ərzində Krımın yeni sahibləri ilə münasibətləri düzəltdi. Bu zaman ərəbrlərlə mübarizəyə başı qarışmış Bizans Hersona kömək edə bilmədi.

695-ci ildə Hersona taxtdan salınmış Bizans imperatoru II Yustinian sürgün edildi. Lakin Yustinian yenidən taxta çıxmaq fikrində idi. Sürgündə göstərdiyi fəaliyyət hersonlar arasında qorxu yaratdı. Onlar keçmiş imperatorun fikirlərinə şərik deyildilər və onu imperatora vermək fikrində idilər. Təhlükə haqqında xəbər alan Yustinian o dövrdə xəzərlərin himayəsində olan Krımdakı Dori dağlıq qalasına qaçdı. Oradan o, xəzər xaqanına müraciət etdi. Xaqan onu qarşıladı və görünür, ona kömək edəcəyinə söz verdi. Xaqanın icazəsi ilə Yustinian xəzərlərin hakimiyyətində olan kuban bulqarlarının şhəəri Taman yarımadasındakı Fanaqoriyada məskunlaşdı. Bu şəhər Bizansda baş verən hadisələri izləmək və Konstantinopoldakı tərəfdarları ilə əlaqə saxlamaq üçün keçmiş imperatora əlverişli idi.

Yustinianın xəzər xaqanı ilə yaxınlaşmasından xəbər tutan Apsimar xaqana nümayəndə göndərərək rəqibini ölü və ya dirisini təslim etməsini istədi və əvəzində böyük mükafat vəd etdi. Xaqan onu təslim etmək qərarına gəldi, lakin xaqanın niyyətindən xəbərdar olan Yustinian Dunay Bulqariyasına getdi. Dunay bulqarlarının köməyi ilə o, Konstantinopolu tuta bildi və yenidən taxta çıxa bildi. Yustinian Hersona qoşun çəkdi. Qəfil hücumla Herson müqavimətsiz Yustinianın qoşunları tərəfindən alındı.

Yustinian devrildikdən sonra xəzərlər Bizansla möhkəm və uzun müddətli ittifaqlarını bərpa etdilər, ümumi düşmənə qarşı (ərəblərə) birgə əməliyyatlar və Cənubi Qafqazda hakimiyyət üzərində danışıb razılaşdıar.

Xalqların böyük köçü dövründə xəzərlərin müstəqil bir tayfa kimi ayrılması və sonrakı proseslər haqqında mühüm məlumatlar Ammian Marsellinin (təxminən 330-400-cü illər) əsərində əks olunmuşdur. O, Roma ordusunda xidmət etmiş, bir sıra şərq yürüşlərində iştirak etmişdir və buna görə təsvir etdiyi hadisələri çox gözəl bilirdi. Milliyyətcə suriyalı yunan olan Ammian Marsellin əsərlərini latın dilində yazırdı.

V əsr müəllifləri içərisində xəzərlərlə bağlı mühüm məlumatlara Zosima, xüsusilə Prisk Paniyskinin əsərlərində rast gəlinir. Zosimanın «Yeni tarix» əsəri e.ə.270-ci ildən eranın 410-cu ilinə qədər olan dövrü əhatə edir. Onun müəllifi Konstantinopolda maliyyə administrasiyasında görkəmli yer tutur və siyasət haqqında geniş biliyə malik idi. Prisk Panili – hüquqşünas və fəlsəfə müəllimi – senator Maksimiliompinin 488-ci ildə hunlarda səfirlikdə olduğu zaman katibi idi. Onun bu səfirlik haqqında hesabatında

hunlara, habelə Şərqi Avropada yaşamış tayfalara aid mühüm məlumatlar öz əksini tapmışdır. Bu dövrü öyrənmək üçün böyük əhəmiyyətə qot krallarını mədh etmək məqsədilə qot tarixçisi İordan tərəfindən 551-ci ildə yazılmış «Qetlərin mənşəyi və əməlləri haqqında» əsəri malikdir. Daha erkən tarixi əsərlərdən götürdüyü məlumatlar əfsanələr və rəvayətlərlə qarışdırmasına və qetləri qotlarla səhv salmasına baxmayaraq İordan IV-VI əsrlər Şərqi Avropa tarixi üzrə bir sıra mühüm məlumatlar verir.

VI əsrin birinci yarısına aid mötəbər məlumatlar Komes Marsellinin latın dilində yazılmış xronikasında əks olunmuşdur. O, Yustinianın taxta çıxana qədər katibi olmuş və rəsmi sənədlərdən istifadə etmək imkanına malik olmuşdur. Buna görə onun qısa məlumatları böyük dəqiqlikləri ilə seçilir. Təəssüf ki, Şərqi Avropada baş vermiş hadisələr onun diqqətindən kənarda qalmışdır və onun əsəri yalnız bununla dolayısı yolla bağlı məsələlərin dəqiqləşdirilməsi üçün önəmlidir. (3,14)

Xəzərlər haqqında məlumat verən ən görkəmli Bizans tarixçilərindən biri Prokopi Kesarili (V əsrin sonu – 560-cı ildən sonra) olmuşdur. Məşhur Bizans sərkərdəsi Velizariyanın dəftərxana rəisi kimi o, bir çox hərbi yürüşlərdə iştirak etmiş və bunun sayəsində müxtəlif xalqlarla tanış olmuşdu. Onun «Yustinianın müharibələr tarixi» əsəri hadisələrin dəqiq təsviri və mühakimələrin obyektivliyi ilə seçilir. Prokopinin əsərləri şərqi Avropa xalqları haqqında geniş məlumatlara malikdir və xəzərlər barədə xüsusilə əhəmiyyətlidir. (13)

Prokopinin davamçısı Aqafiy (536-582) şair və natiq olmuşdur.(Aqa) Onun «Yustinianın şahlığı haqqında» əsəri yalnız yeddi ili əhatə edir, 552-ci ildən 558-ci ilə qədər, lakin burada böyük yer Lazikadakı döyüşə verilmişdir və bununla bağlı olaraq Qafqaz və Şimali Qara dəniz xalqları haqqında bir sıra məlumatlar öz əksini tapır. Sonrakı hadisələr imperator administrasiyasında yüksək vəzifə tutan və buna görə də yaxşı məlumatı olan Menandr Protiktorun əsərində işıqlandırılır. (10) Bu əsər Yustinianın hakimiyyətinin son illərindən I Tiberinin hakimiyyətinə qədər olan dövrü əhatə edir. Təəssüf ki, bu əsər tam şəkildə saxlanılmamışdır və yalnız ayrı-ayrı hissələrə görə məlumdur. Lakin bu hissələr Avrasiya düzənliklərinin köçəri tayfaları haqqında ən maraqlı və ən mühüm məlumatları əhatə edir. İmperator Mavrikiyanın hakimiyyəti İrakli hakimiyyəti dövründə yaşamış (610-641) Feofilakt Simokatt tərəfindən (582-602) təsvir edilmişdir. (16) Burada da xəzərlərə aid geniş və dəyərli məlumatlar əks olunmuşdur.

VII-VIII əsrlər Bizans tarixşünaslığında o qədər də yaxşı əks olunmamışdır. Bu və bundan sonrakı dövr üçün əsas mənbələri xronikalar təşkil edir və bunlara əsasən 810-815-ci illərdə yazmış Bizans rahibi Feofan və onun müasiri patriarx Nikifor (806-815) aid etmək olar.

Bunların içərisində Nikiforun 602-769-cu illəri əhatə edən «Qısa tarix» əsəri xüsusi şöhrətə malik idi. Hər iki müəllif bizim dövrə gəlib çatmayan VII-VIII əsr mənbələrindən istifadə etmişlər və hətta bəzi hallarda onların məlumatları tamamilə üst-üstə düşür. IX əsrin ortalarına Qeorqiy Amartolun xronikası aiddir. Müəllif Malala, Feofan və Nikiforun əsərlərinə əsaslanmış və digər mənbələrdən əlavələr etmişdir.

Yalnız adda imperator olmuş (945-ci ilə qədər) Konstantin Baqryanorodnıy (913-959) böyük həvəslə tarixlə məşğul olurdu və alimlərdən ibarət bir qrup təşkil edərək onlara özündən əvvəl hakimiyyətdə olanların bioqrafiyası, habelə Bizans diplomatiyası, siyasəti, hərbi iş və s. üçün material toplamağı həvalə etdi. Bu kollektivin sayəsində Prisk və Menandr kimi tarixçilərin əsərləri iqtibas şəklində saxlanılmışdır.

Bizans mənbələrindən sonra xəzərlər və digər qonşu tayfalara aid mühüm məlumatları əhatə edən suriya mənbələri gəlir. Bu mənbələrin içərisində VI əsrin birinci onilliyində tərtib olunmuş və İeşu Stilita adı ilə məşhur olan qədim xronika və Zaxariya Ritora aid edilən 569-cu ildə yekunlaşmış «Kilsə tarixi» əsərləri xüsusilə önəmlidir. (12)

Məlum olduğu kimi, xəzərlərin ən yaxın qonşuları Cənubi Qafqaz xalqları olmuşdur (albanlar, gürcülər və b.). Xəzərlərin tarixi üzrə ən möhtəşəm və mötəbər mənbə Uti vilayətinin (indiki Azərbaycan) Kalankatuyk kəndində əkinçi Moisey Kalankatuylunun «Alban tarixi» əsəridir. Hal-hazırkı formasında bu əsər özündən əvvəlki müəlliflərin materiallarını əhatə edən kompilyasiyadır. X əsrdə bu müəllifin əsəri VIII-X əsrlərə aid məlumatlarla əhatə edilmiş və yenidən işlənmişdir. Bu əsər Türküt-xəzər məişəti üzərində bir sıra canlı müşahidələrə əsaslanır. Burada hunların Dağıstanda şahlığı və xəzərlərin Cənubi Qafqazda müharibələri haqqında mövcud məlumatlar da olduqca əhəmiyyətlidir.

Türkütlərin Cənubi Qafqaza ilk yürüşü çox güman ki, İranın diqqətini Bizansdan yayındırmaq və İrakliyə yeni müttəfiqi ilə birlikdə müharibəni bərpa etməyə hazırlaşmaq imkanı vermək məqsədi güdürdü. Bu vəzifə, sonrakı hadisələrin göstərdiyi kimi, yerinə yetirildi. İrakli yenidən qoşun yığdı və yenə zərbə endirməyə hazır oldu.

627-ci ildə Cebu xaqan şadla birlikdə saysız-hesabsız qoşunun başında yürüşə başladı. «Şimal şahı» və «Böyük xaqan», yəni o dövrdə qərbi türkütlərin xaqanı Tun-şexu idi: 616-cı ildə öz qardaşı Şequnun ölümündən sonra o, xaqan oldu. Ondan sonra ikinci şəxs və ya canişin – cebu və yabqu – xaqan onun qardaşı idi, o da böyük xaqanın qardaşı oğlu – şadın atası idi. Yabqu və şad – Türküt xaqanlığının yüksək əyanlarının titullarıdır. İraklinin köməyi ilə gedən türküt qoşununun başında dayanan bu titullara malik xüsusi şəxs adları məlum deyil, dolayısı məlumatlara istinadən güman etmək olar ki, yabqu-xaqan Tun-şexunun kiçik qardaşı – Moho-şad idi. O, 618-626-cı illər arasında Türküt səfiri kimi Çinə getmişdi. Onun haqqında bundan artıq məlumat yoxdur. Lakin fərz etmək olar ki, xaqanın ən yaxın qohumu kimi yabqu titulunu almış və Çin tarixşünaslığının diqqətindən kənarda qalmış Türküt dövlətinin qərb vilayətlərini idarə edirdi. Onun üç oğlu vardı: Nişu, Tunva və Buli.

Cənubi Qafqazda döyüşən şadın gəncliyindən məlum olur ki, bu Moxo-şadın kiçik oğlu Buli-şad idi.

Türkütlərin qoşunu birinci növbədə Dərbəndə hücum etdi. Alban tarixində deyilir: «Yırğalanan dənizin dalğaları kimi türkütlər Çora şəhərinə (Dərbənd) hücum etdilər və onu yerlə-yeksan etdilər». (3, 147) Paytaxt Partava qaçmış Alban sakinlərini Çora haqqında deyilənlərdən dəhşət bürümüşdü. Dəhşətli düşmənin zülmünə müqavimət göstərməyə ümidi olmayan sakinlər öz var-dövlətini qoyub xilas olmaq üçün Qarabağ dağlarına qaçdılar. Türkütlər qaçanların bir hissəsini Kalankatuyk kəndi yaxınlığında dağ ətəyində yaxaladılar. (3, 105-106)

Albaniyanı dağıdandan sonra türkütlər İberiyaya yönəldilər və Tiflis şəhərini mühasirəyə aldılar. Bura Bizans imperatoru öz qoşunu ilə gəldi. Bundan əvvəl o öz müttəfiqlərini Lazikdə gözləyirdi. Məhz bu dövrdə Tiflis yaxınlığında İraklinin yabqu-xaqanla görüşü baş verdi.

Xəzərlərin tarixi üzrə yazılı mənbələrin böyük bir hissəsini ərəb və fars dilli mənbələr təşkil edir. Məlumdur ki, ərəblər xəzərlərlə Cənub-Şərqi Qafqaza sahib olmaq uğrunda güclü rəqiblər kimi görüşmüşdülər.

Ərəblərin Cənubi Qafqazda möhkəmlənməsi xəzərlərlə yeni toqquşmanın yaranmasına səbəb oldu. Xəzərlər sonradan ərəblərə qarşı yalnız müstəqil deyil, həm də Bizansın müttəfiqi kimi çıxış edərək onu tamamilə məhv olmaqdan xilas etmişdi. Xəzərlər dəfələrlə ərəb qüvvələrini özünə cəlb etmiş və bununla da öz müttəfiqinə məğlubiyyətdən qaçaraq yeni hücumlara hazırlaşmaq üçün imkan yaratmışdır. Hələ 693-cü ildə Məhəmməd ibn Oqbay Dərbənd keçidini tutmuşdu, lakin, görünür, buranı əlində saxlaya bilməmişdi. 706-cı ildə ərəb sərkərdəsi Azərbaycanın şəhər və qalalarını işğal edərək Dərbənd yaxınlığındakı xəzər kəndlərinə hücum etmişdi. Təbərinin verdiyi məlu-

mata görə, 709-cu ildə o dövrdə zilafətin Cənubi Qafqaz torpaqlarının başında duran Məhəmməd İbn Mərvan yenə Dərbəndi ələ keçirtdi. Bu çağırışa xəzərlər yalnız 710-cu ildə yeni imperator Filipi təsdiq edərək Bizansla işlərini qurtardıqdan sonra cavab verdilər. Onlar Albaniyanı tutmağa çalışdılar, Dərbəndi və ölkənin şimal sahil hissəsini tuta bildilər, lakin bu, uzun çəkmədi. 713-cü ildə ərəb sərkərdəsi Dərbəndi yenə aldı. Bundan sonra o, Dərbənddən hunların ölkəsinə soxuldu və onu işğal edərək Tarku şəhərinə qədər irəlilədi. Hunlar xəzər xaqanını ərəblərin hücumundan xəbərdar etdi və xaqan ərəbləri böyük bir qoşunla qarşıladı. Düşmən qoşunlar bir neçə gün qarşı-qarşıya dayandılar və döyüşə başlamaq üçün heç bir tərəf addım atmadı, lakin igidləri təkbətək döyüşə buraxırdılar. Xəzərlər əlavə qoşunun gələcəyini gözləyirdi, ərəblər isə xəzərlərin sayca üstün olmalarından ehtiyat edirdilər və geri çəkilməyə bir yol axtarırdılar. Nəhayət, ərəblər öz rəqiblərini aldada bildilər. Onlar düşərgələri hazır vəziyyətdə qoyaraq dağlara çəkildilər və dağ meşələrində gizləndilər, sonra isə İberiyaya üz tutdular. Bəzi mənbələrə görə ərəb qoşununun geri çəkilməsinə alban hökmdarı imkan yaratdı və onun şücaəti ərəb ordusunu məğlubiyyətdən xilas etdi.

Ərəbləri geri çəkilməyə məcbur edən xəzərlər Albaniyaya daxil oldular. Xəlifə Ömərin (717-720) dövründə xəzərlər Azərbaycanın şimal hissəsindəki ərazilərdə ağalıq edirdilər.

727-ci ildə ərəb sərkərdəsi Maslam Azərbaycan tərəfdən xəzərlərə qarşı yürüş etdi və ibn-əlƏsirin dediyinə görə, böyük bir qənimətlə qayıtdı və əsirlərlə 728-ci ildə Dəryal keçidi vasitəsilə yürüşünü davam etdi və Xəzər xaqanlığının ərazisinə daxil olaraq xaqanla görüşdü və təxminən bir ay müddətində onların arasında vuruşma getdi. Yelsan yağışların yağması ərəblərin uğursuzluqla qayıtmasına səbəb oldu.

Ərəblərin fasiləsiz hücumlarına cavab olaraq xəzərlər, nəhayət, öz düşmənlərinə qarşı ciddi hücuma hazırlaşdılar. 730-cu ildə xəzərlərin böyük qoşunu Azərbaycana daxil oldu. Ərəb mənbələrinə görə, ordunun başında xaqanın oğlu Barcil dayanırdı. Bunun ardınca xəzərlər Ərdəbili tutdular, əldə silah tuta bilən bütün sakinlərini öldürdülər, arvad və uşaqları isə əsir tutdular.

Xəzərlər Azərbaycanın işğalını davam etdirirdilər. Onlar Təbrizi dağıtdılar, Baqavanı qarət etdilər. Onların dəstələri Diyarbəkr və Mosul ətrafına qədər çatdılar. Xəzərlərin qarətlə məşğul olarkən dəstələrə bölünməsindən istifadə edən ərəb sərkərdəsi Səid onların üzərinə hücum etdi və tək-tək bütün dəstələri məhv etməyə başladı.

Cənubi Qafqaza gələrkən Səid burada pərakəndə halda dağılmış ərəb döyüşçülərini toplamağa başladı və yolunun üzərində yerləşən şəhərləri tutaraq o Bərdəyə gəldi. Səid xəzərlərin bu ərazilərdə olan dəstələrinin hamısını məhv etdi. Lakin bununla xəzər-ərəb müharibəsi yekunlaşmadı.

Lakin qeyd etmək lazımdır ki, ərəblər xəzərlərlə yalnız döyüşmürdülər, həm də onlarla ticarət edir və digər sahələrdə qarşılıqlı əlaqələr qururdular. Buna görə həm tarixi, həm də coğrafi məzmunlu ərəbdilli ədəbiyyat xəzərlər haqqında məlumatlarla zəngindir.

Ərəb müəllifləri arasında həm zamana, həm də əhəmiyyətinə görə birinci yeri şimal-qərbi İranda Cibal vilayətində dövlət məmuru olmuş Əbulqasım Übeydullah ibn Allah ibn Xordadbehə aid etmək lazımdır. Onun «Təriqətlər və məmləkətlər kitabı» əsəri dəqiq topoqrafik və tarixi məlumatlarla əhatə olunan qısa coğrafi vəsaitdir. Bu təxminən 885-886-cı ildə yazılmış və bizə ixtisar olunmuş və düzəlişsiz nüsxədə gəlib çatmışdır.

IX əsrin digər mühüm mənbəsi -böyük ərəb tarixçisi və şairi Əbulabbas Əhməd ibn Yəhya Cabir əl-Balazurinin «Ölkələrin işğalı» kitabıdır. Bu kitab da yalnız ixtisarlarda məlumdur, lakin onun tam mətni XIII əsrdə Yakut tərəfindən coğrafi lüğətdə isti-

fadə edilmişdir. Balazuri bu kitabı dəli olana qədər və ölümündən bir qədər əvvəl 892-893-cü ildə yazmışdır. Xəzərlərlə bağlı bu əsərin ərəb-xəzər müharibəsinə həsr olunmuş hissəsi xəzərlərin o dövrdəki tarixini öyrənmək üçün çox əhəmiyyətlidir.

IX əsrə aid başqa ərəb müəllifi – Əhməd ibn Əbu Yəqub ibn Cəfər ibn Vəhb ibn Vadix əl-Yəqubi müxtəlif ölkələrdə (Xorasanda, Hindistan və Misirdə) yaşamışdır. Yəqubinin «Tarix» əsəri kiçik həcmli olmasına baxmayaraq xəzərlər haqqında bir çox maraqlı məlumat verir. (19)

X əsrin əvvəlində (902) İbn əl-Fəqih təxəllüslü Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn İshaq əl-Həmədani «Ölkələr tarixi» adlı coğrafi əsərini yazmışdır. 1923-cü ilə qədər elmə bu əsərin yalnız ixtisar olunmuş nüsxəsi məlumdur. Həmin ildə Məşhəd məscidinin kitabxanasında əlyazma toplusu tapılmışdır və digər əsərlərlə yanaşı burada İbn əl-Fəqihin əsərinin ikinci hissəsi də tam şəkildə vardı. Burada o, öz sələflərinin əsərlərindən istifadə etmiş və özündən də müəyyən əlavələr etmişdir. (3) Bu işdə xəzərlər haqqında məlumatlar azdır, onlar haqqında daha çox məlumatı X əsrin əvvəllərinə aid digər ərəb müəllifi – Əbu Əli Əhməd ibn Ömər ibn Ruste vermişdir. Onun «Qiymətli cəvahirat» əsəri müxtəlif məsələlər üzrə ensiklopedik əsərdir, lakin bizə onun Şərqi Avropa haqqında məlumatları əhatə edən bir cildi (7-ci) gəlib çatmışdır. (3)

Xəzərlərin tarixi üzrə ən mühüm mənbələrin sırasına Əhməd ibn Fadlanın özünəməxsus əsərini də aid etmək olar. Bu, 922-ci ildə bulqarlara səfirlik haqqında məruzə yazısıdır və bu, səfirliyin katibi tərəfindən xəlifə Müqtədir üçün tərtib edilmişdi. Burada bulqarların ölkəsinə səfərin edilməsi, orada qalması və səfirlik tərəfindən qəbul edilməsi təfsilatı ilə təsvir edilmişdir və sonda xəzərlər haqqında bəzi məlumatlar verilmişdir. 1923-cü ilə qədər İbn Fadlanın yazısı Yaqutun lüğətində mövcud hissələrinə görə məlum idi. Həmin ildə İbn əl-Fəqihin əsəri ilə birlikdə bu yazının tam mətni aşkar edilmişdir – bu mənbə yalnız bulqar və xəzərlərin deyil, digər xalqların tarixi üçün də böyük əhəmiyyətə malikdir.

X əsrdə yalnız coğrafi əsərlər deyil, həm də çox önəmli tarixi əsərlər meydana gəlir. Bu əsərlərin müəllifləri içərisində böyük ərəb tarixçisi Əbu Cəfər Məhəmməd ibn Cerir ət-Təbəri – 839-cu ildə Amulda anadan olmuşdur – xüsusi yer tutur. Mənşə etibarilə iranlı olan Təbəri klassik ərəb təhsili almış, çoxlu səyahətlər etmiş və ömrünün sonuna yaxın Bağdadda yerləşərək özünü elmə və müəllimliyə həsr etmişdir. O, 923-cü ildə vəfat etmişdir. Təbərinin müxtəlif sahələr üzrə qalmış əsərləri içərisində «Peyğəmbərlər və şahların tarixi» əsəri xüsusi əhəmiyyətə malikdir. Bu əsər dünyanın yaranışından başlayaraq ərəblərə məlum olan əsas müsəlman mədənyyətli xalqların tarixinə qədər olan böyük bir dövrü əhatə edən ümumdünya tarixidir. Bu əsərdə xüsusilə İranın tarixi tam təfərrüatı ilə təsvir edilmişdir. (3, 21)

Xəzərlərlə bağlı Əbu Mənsur Əbd əl-Malik ibn Məhəmməd ibn İzmail əl-Saalibinin 1017-1022-ci illər arasında Qəznəvilər sarayında yazdığı «Fars şahlarının tarixi» əsərini də qeyd etmək olar. Müəllifi bu əsərdə Firdovsinin Şahnamə əsərində istifadə etdiyi mənbələrə müraciət etmişdir. (3, 22)

Xəzərlərin tarixinin öyrənilməsində farsdilli mənbələrin də böyük əhəmiyyəti vardır. IX əsrdə Orta Asiyada paytaxtı Buxara şəhəri olan müstəqil Samanilər dövləti meydana gəldikdə, bu şəhər mədəniyyət mərkəzinə çevrildi. Burada bir çox elmlər, xüsusilə tarix və coğrafiya elmi inkişaf etməyə başladı. Coğrafiya sahəsində ilk farsdilli əsərlərdən biri X əsrin əvvəlində Samani şahının vəziri Əbu Abdulla Məhəmməd əl-Ceyhani tərəfindən yazılmış və «Təriqətlər və şahlar kitabı» adlanan əsərdir. Onun əlyazması bizim dövrə gəlib çatmamışdır, lakin məzmunu sonrakı dövrdə yazılmış əsərlərdə verilən sitatlara görə məlumdur. (3, 24)

982-983-cü ildə naməlum müəllif tərəfindən tərtib olunmuş «Hüdud əl-aləm» (Xud) adlı digər farsdilli coğrafiya əsəri də bizim dövrə qədər qalmışdır. Onun yeganə əlyazması 1892-ci ildə Buxarada A.Tumanski tərəfindən aşkar edilmişdir. Bu əsər üçün əsas mənbələrdən biri Ceyhaninin əsəri olmuşdur. Belə mühüm əsərdə yalnız fars və ya ərəb deyil, ümumiyyətlə, orta əsr ədəbiyyatında bu tipli əsərlərin tərtibi sistemindən doğan bir çox qarışıqlıq və qeyri-dəqiqlik mövcuddur. Bunlarda lazımi tənqidi yanaşma olmadan müxtəlif mənbələr və müxtəlif dövrlərə aid məlumatlar mexaniki olaraq təsvir edilir. (3, 24)

Hələ 963-cü ildə Təbərinin əsəri fars dilinə tərcümə edilmişdir. Əsər, çox güman ki, ilk dəfə Samani vəziri Əbu Əli Məhəmməd Bələmi tərəfindən tərcümə edilmişdir. Bu tərcümədə orijinalın ərəb mətnində saxlanılmış tomlarında mövcud olmayan məlumatlara təsadüf olunur. Tərcüməçi, görünür, Təbərinin əsərinin tam mətnindən və ola bilsin, digər tarixi əsərlərdən də istifadə etmişdi. Buna görə Bələminin əsərinin xüsusi əhəmiyyəti vardır. (3, 25)

Yuxarıda qeyd edilən mənbələrdən əlavə çin mənbələrini də qeyd etmək lazımdır, belə ki, burada da xəzərlər haqqında müəyyən məlumatlar mövcuddur.

XVIII əsrdə xəzərlər haqqında ilk tədqiqat əsərləri meydana gəlir. Onlardan ən önəmlisi Tunmann və Sumun tədqiqatlarıdır. Yəhudi və Bizans mənbələrindən əlavə, burada Avropada məşhur olmuş bir sıra şərq müəlliflərinin əsərlərindən də istifadə edilmişdir. XVIII əsrdə Rusiyada xəzərlərlə Elmlər Akademiyasında işləmək üçün dəvət olunmuş alman tədqiqatçısı Bayer (1694-1738) maraqlanmağa başladı. O, ilk dəfə olaraq elm aləmini möhtəşəm tarixi əsər olan – xəzərlər haqqında geniş bəhs edən – Dərbəndnamə ilə tanış etdi. Bu əsərin nüsxəsi 1723-cü ildə I Pyotra təqdim olundu. (3, 28)

Xəzərlər haqqında elm üçün böyük əhəmiyyətə Frenin əsərləri malikdir, o, yalnız ərəb müəllifləri deyil, həm də şərq numizmatikasını tədqiqata cəlb etmişdi. XIX əsrin birinci yarısına aid Avropa tarixçilərindən D'Osson (1740-1807) və Q.Y.Klaprotun (1783-1835) adını çəkmək olar. Hər ikisi şərq mənbələrində xəzərlər haqqında yeni materiallar toplamış və elm aləminə təqdim etmişlər. D'Ossonun uydurulmuş ərəb səyyahı tərəfindən yazılmış əsəri ərəb müəlliflərinin Qafqaz və xəzərlər haqqında məlumat məcmusunu əhatə edir. Bu əsər uzun müddət xəzərlərin tarixi ilə tanış olmaq üçün əsas vasitə kimi istifadə edilmişdir.

XIX-XX əsrlərdə xəzərlər və onların tarixi ilə bağlı ayrı-ayrı məsələlər haqqında Avropa, xüsusilə rus tarixşünaslığında külli miqdarda təqiqat əsərləri meydana gəldi. Bu tədqiqatlar içərisində V.V.Qriqoryevin (1816-1881) D.Yazıkov, P.V.Qolubovskinin, M.Kmoşko, L.Y.Lavrovski, Bruçkus, V.Moşin, Q.Vernadskiy, D.M.Danlop, o cümlədən V.V.Bartold, M.İ.Artamonov, L.Qumilyov və başqalarının adını çəkmək olar.

### *ƏDƏBİYYAT*

1.Агафий, О царствовании Юстиниана. Перевод М.В.Левченко, М.-Л., 1953.
2.Аммиан Марцеллин, История, Перевод с латинского Ю.Кулаковского.Киев, 1906-1908.
3.Артамонов М.И., История хазар, Л., 1962.
4.Бартольд В.В., О письменности у хазар. Культура и письменность Востока, IV. Баку, 1929.
5.Гаркави А.Я., Сказания еврейских писателей о хазарах и хазарском царстве, СПб, 1874,
6.Гумилев Л., Открытие Хазарии, М., 2007.
7.Иордан о происхождении и деяниях гетов, М., 1960. Перевод, комментарий Е.Ч.Скржинской.
8.Историн В.М., Хроника Георгий Амартола в древнем славяно-русском переводе. 3тома, П., 1920.

9.Ковалевский А.П., Книга Ахмеда Ибн Фадлана о его путешествии на Волгу в 921-922 гг. Харьков, 1956.
10.Менандра Византийца продолжение истории Агафиевой. Византийские историки. Перевод с греческого Спиридона Дестуниса. СПб., 1860.
11.Никифора патриарха Константинопольского Краткая история со времени после царствования Маврикия, Перевод Е.Э.Липшиц, 1950.
12.Пигулевская Н.В., Сирийские источники по истории народов СССР, Хроника Захария Ритора, М.-Л., 1941.
13.Прокопий Кесарийский. История войн римлян с персами в двух частях. Перевод с греческого Спиридона Дестуниса, СПб, 1862.
14.Коковцов П.К., Еврейско-хазарская переписка в X в., Л., 1932.
15.Рыбаков Б.А., К вопросу о роли Хазарского каганата в истории Руси, СА, XVIII, 1953, с.128-150.
16.Феофилакт Симокатта, История. Перевод С.П.Кондратьева, М., 1957.
17.Хвольсон Д.А., Известия о хазарах, буртасах, болгарах, мадьярах, славянах и русских ибн Даста, СПб, 1869.
18.Худуд ал'алем. Рукопись А.Туманского. С введением и указателем В.В.Бартольда. Л., 1930.
19.Якуби. История. Перевод П.К.Жузе. Материалы по истории Азербайджана, Баку, 1927.

**ХАТИРА ИЛЬЯСОВА**

## ИСТОЧНИКИ ПО ИСТОРИИ ХАЗАР

Эта статья посвящена к изучению основных источников по истории хазар. Автор рассматривает византийские, арабские, персидские и другие источники по истории хазар и объясняет причин появления в этих источниках сообщении о хазарах.

**KHATIRA ILYASOVA**

## THE SOURCES ON THE HISTORY OF KHAZARS

In the article we go through the main sources off the Khazars. We study Byzance, Arabic, Persian sources about the history of Khazars and describe the reasons of the appear of these information in these sources.

***Rəyçilər: t.e.n.S.İsmayılova, t.e.d.İ.M.Məmmədov.***
***BDU-nun «Türk və Qafqaz xalqları tarixi» kafedrasının 03 mart 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol 05).***